**HÜSEYNOV ƏHMƏD ALI OĞLU**
**(1938)**
**Dilçi**

1938-ci ildə anadan olmuşdur. 1955-1962-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda Alman dili ixtisası üzrə təhsil almışdır. 1975-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, 2005-ci ildə professor elmi adı almışdır. 1960-1961-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda alman dili müəllimi işləmişdir. 1968-1985-ci illərdə BDU-da baş müəllim vəzifəsində çalışmışdır. Hazırda Alman və fransız dilləri kafedrasında alman dili fənnini tədris edir. Azərbaycanca-almanca danışıq kitabı, “Alman dili – 1” (universitetin ixtisası xarici dil olmayan fakültələrinin tələbələri üçün), “Alman dili – 2” (universitetin ixtisası xarici dil olmayan fakültələrinin tələbələri üçün) adlı dərslikləri çap olunmuşdur.